Azərbaycan Aqrar Elmi 4 2018 Аграрная Наука Азербайджана

UOT 634.8: 631.523: 631

BƏZİ İNTRODUSENT ÜZÜM SORTLARININ PERSPEKTİVLİYİNİN "İNNOVATİV MODEL" ƏSASINDA QİYMƏTLƏNDİRİLMƏSİ

V.S. SƏLİMOV, M.Ə. HÜSEYNOV, H.N. NƏSİBOV, A.S. HÜSEYNOVA, A.S. ŞÜKÜROV
AKTN Üzümçülük və Şərabçılıq Elmi Tədqiqat İnstitutu

Çoxillik elmi tədqiqatlar nəticəsində Cəlilabad şəraitində becərilən müxtəlif dövrlərdə yetişən, bəzi introduksiya olunmuş süfrə üzüm sortları ətraflı öyrənilmiş, onların rayonun torpaq-iqlim şəraitinə uyğunluğu və perspektivliyi kompleks əlamətlər fonunda qiymətləndirilmişdir. Tədqiqatlar zamanı Cəlilabad rayonu şəraitində əkilib-becərilən introduksiya olunmuş üzüm sortlarının müxtəlif gözcük yükü fonunda məhsuldarlıq göstəricilərinin öyrənilməsinə dair tədqiqat işləri həyata keçirilmişdir. Məqalədə əsasən bu şəraitdə əkilib-becərilən üzüm sortlarının məhsuldarlıq göstəricilərindən (məhsullu zoğlar, zoğun bar əmsalı, salxımların sayı, salxımların orta kütləsi, tənəyin məhsuldarlığı, hektar üzrə məhsul və s.), tənəklərin boyatma və inkişaf xüsusiyyətlərindən bəhs edilir.

Açar sözlər: *süfrə üzüm sortu, məhsuldarlıq, barlı zoğlar, barsız zoğlar, şəkərlilik, titrlənən turşuluq.*

Bitkiçilikdə müasir texnologiyanın intensiv inkişafı, kənd təsərrüfatı bitkilərinin potensial məhsuldarlıq xüsusiyyətlərindən və təbii ehtiyatlarından maksimum səmərəli istifadə edərək məhsuldarlığın proqramlaşdırılması vacib tədbirlərdən biridir [1, 4, 6, 8, 9, 12].

Üzüm bitkisinin məhsuldarlığının təməli, inkişafı və formalaşması bütün vegetasiya dövrü müddətində baş verir. Çoxsaylı tədqiqatlarla müəyyən edilmişdir ki, üzüm bitkisinin məhsuldarlığı mürəkkəb amillərin qarşılıqlı təsiri altında yaranır və formalaşır. Məlumdur ki, üzüm bitkisinin yetişdiyi ekoloji mühit, abiotik və antropogen amillər bitkinin məhsuldarlıq göstəricilərinin inkişafına əhəmiyyətli təsir edir [1, 2, 7, 8, 9, 12].

Ona görə də üzüm bitkisindən bol və keyfiyyətli məhsul əldə etmək üçün onun konkret torpaq-iqlim şəraitində optimal becərilmə texnologiyasını müəyyən etmək vacibdir. Bununla yanaşı üzüm çoxillik bitki və mədəni yetişdirilmə şəraitində ən azı 20-30 ilə qədər və daha artıq yaşadığından üzümlüklər salınarkən, sahədə yetişdirilən tənəklərin uzunömürlü, rentabelli və stabil məhsuldar olması üçün onlara düzgün əkin yerinin və aqrotexniki tədbirlər sisteminin seçilməsi böyük əhəmiyyət kəsb edir [4, 12].

Kənd təsərrüfatı bitkilərindən, o cümlədən üzüm sortlarından hər il sabit və keyfiyyətli məhsulun alınmasında sort, ekoloji şərait və bitkilərin yetişdirilmə texnologiyası əsas şərtdir. Bu amillər üzüm bitkisindən alınan son məhsulların (şərab, şirə, süfrə üzümü, mövüc, kimiş, şərbət və s.) keyfiyyətinin və istifadə istiqamətinin formalaşmasına birbaşa təsir edir [1-4, 6-12].

Material və metod. Tədqiqatın materialını Cəlilabad şəraitində əkilib-becərilən bir sıra yerli və introduksiya olunmuş üzüm sortlarının tənəkləri təşkil etmişdir. Tədqiq edilən üzüm sortlarının morfoloji, aqrobioloji (vegetasiya müddəti, məhsuldarlıq elementlərinin uçotu və s.) və məhsulun mexaniki və kimyəvi tərkibi ənənəvi və müasir üsullarla (ampeloqrafik deskriptorlar və s.) öyrənilmişdir [3, 5, 9, 13, 14]. Üzüm sortlarının perspektivliyi, əsasını OIV-nin müvafiq ampelodeskriptorları təşkil edən "yeni model" üzrə qiymətləndirilmişdir [2, 3, 5, 10, 13, 14]. Alınmış nəticələrin dürüstlük səviyyəsini yoxlamaq üçün kəmiyyət əlamətləri üzrə qeyri-parametrik U (*Wilcoxon-Mann-Whitney test*) və parametrik *Styudentin t-* meyarlarından, keyfiyyət göstəriciləri üzrə isə-x^2 (k*si-kvadrat*) üsullarından istifadə edilmiş, əldə edilən göstəricilər müqayisəli şəkildə riyazi-statistik təhlil olunmuşdur [6].

Nəticələr və onların müzakirəsi. Bunları nəzərə alaraq Cəlilabad şəraitində əkilib-becərilən yerli və introduksiya olunmuş üzüm sortlarının məhsuldarlıq göstəricilərinin öyrənilməsinə dair tədqiqat işləri həyata keçirilmişdir. Öyrənilən üzüm sortlarının məhsuldarlıq göstəricilərinin təhlili məqsədilə optimal yük norması müəyyən edilmiş tənəklərdən istifadə edilmişdir. Tədqiqatlar zamanı sortların bioloji xüsusiyyətlərindən asılı olaraq onlara müxtəlif yük norması verilmiş və hər bir sort üçün optimal gözcük yükü müəyyən edilmişdir. Bu gözcük yükü fonunda üzüm sortlarının bar elementləri müəyyən edilmişdir (cədvəl 1).

Barlı zoğlar məhsuldarlığın formalaşmasına təsir edən əsas bar elementlərindəndir. Tədqiqat zamanı müəyyən edilmişdir ki, öyrənilən üzüm sortlarında barlı zoğların miqdarı müxtəlif olmaqla, ən az Kardinal (26,7%), ən çox isə Prima sortunda (53,6%) inkişaf edir. Digər sortlarda isə (Parkent,

Red qlob, Alfons Lavelle, Autmn Royal, Sentennial sidlis, Sultanina) bu göstərici 30,6-45,2% arasında tərəddüd edir. Məhsuldarlığın vacib elementlərindən biri də, zoğun bar əmsalıdır. Bu göstərici tənəkdəki salxımların miqdarının ümumi yaşıl zoğların miqdarına nisbətini ifadə edir. Müəyyən edilmişdir ki, tədqiq edilən üzüm sortlarında zoğun bar əmsalı 0,40 (Kardinal)- 0,82 (Prima), salxımların miqdarı 18 (Kardinal)- 29 ədəd (Sentennial sidlis) arasında dəyişir. Parkent və Kardinal sortları istisna olmaqla digər sortların (Prima, Red qlob, Alfons Lavelle, Autmn Royal, Sentennial sidlis, Sultanina) tənəklərində salxımlar xeyli çoxluq (23-29 ədəd) təşkil etmişdir.

Salxımların orta kütlə göstəricisi üzüm sortlarının məhsuldarlığına birbaşa təsir edən bar elementlərindəndir. Bu göstərici öyrənilən üzüm sortlarında bir-birindən nəzərəçarpacaq dərəcədə fərqli olmaqla, Kardinalda 327,7 q, Sultaninada 338,0 q, Primada 344,0 q, Alfons lavelledə 378,6 q, Sentennial sidlis-də 413,3 q, Red qlobda 426,7 q, Autumn Royalda 440,7 q, Parkentdə isə daha iri olmaqla 639,3 q təşkil etmişdir. Göründüyü kimi, tədqiq edilən sortlar arasında salxımları çox xırda, xırda və çox iri ölçüyə malik olan tənəklər müşahidə edilmir. Lakin müşahidələr zamanı Parkent və Red qlob sortlarının bəzi tənəklərində çox iri salxımlara (1 kq və daha artıq) rast gəlinmişdir. Son illər üzümçülükdə üzüm sortlarının məhsuldarlığının yüksəldilməsinin əsas hədəf götürülməsinin səmərəliliyinin aşağı olduğu qənaətinə gəlinmişdir. Çünki tənəyin məhsuldarlığı yüksəldikcə onun keyfiyyətinin pisləşməsi tədqiqatlarla sübuta yetirilmişdir.

Cədvəl 1

Üzüm sortlarının məhsuldarlıq və keyfiyyət göstəriciləri

Sortlar	Barlı zoğların miqdarı, %	Tənəkdə salxımların miqdarı, ədəd	Zoğun bar əmsalı	Salxımların orta kütləsi, q	Zoğun məhsuldarlıq indeksi		Bir kolun məhsuldarlığı, kq			Hektardan məhsuldarlıq, s/ha	100 gilənin kütləsi, q	Nəzarətə görə fərqin dürüstlüyü, P	Şəkərlilik, q/100sm^3	Şəkərlilik turşuluq əmsalı
					Salxımın quru kütləsi üzrə	Şəkərlilik hesabı ilə	$\bar{X} \pm S_{\bar{X}}$	Nəzarətə görə fərq: $\Delta, \bar{X}$ %	Nəzarətə görə fərq: P					
Parkent	35,7	19±0,68	0,45	639,3±25,4	295,2	60,0	12,4±0,27	+51,6	p<0,001	275,5	730±6,8	p<0,001	20,3±0,21	3,5
Prima	53,6	23±0,71	0,82	344,0±8,8	267,8	55,4	7,5±0,20	+20,0	p<0,05	166,7	486±4,1	p>0,05	20,7±0,24	3,7
Red Qlob	30,6	25±0,73	0,45	426,7±4,1	192,8	36,1	10,8±0,41	+44,4	p<0,001	240,0	820±13,6	p<0,001	18,7±0,55	2,8
Alfons lavelle	41,3	27±0,88	0,59	378,6±7,5	210,8	42,4	9,7±0,20	+38,2	p<0,001	216,3	620±8,6	p<0,05	20,1±0,24	2,7
Autumn Royal	40,0	25±0,54	0,54	440,7±64,8	213,0	37,7	9,8±0,48	+38,8	p<0,001	217,8	580±7,2	p>0,05	17,7±0,61	3,2
Sentennial sidlis	45,2	29±1,02	0,70	413,3±2,7	262,0	47,7	11,0±0,31	+45,5	p<0,001	245,2	490±4,8	p>0,05	18,2±0,72	2,9
Sultanina	40,0	27±2,05	0,50	338,0±13,6	149,0	27,3	8,2±0,48	+26,8	p<0,05	181,3	260±3,4	p>0,05	18,3±0,65	3,8
Kardinal (nəz.)	26,7	18±0,58	0,40	327,7±6,8	133,3	25,7	6,0±0,20	-	-	133,3	560±8,5	-	19,3±0,68	2,8

Qeyd: P- nəzarətə görə fərqin dürüstlüyü (U meyarına görə), $\Delta \bar{X}$ %- orta artım %-lə;

Belə ki, müxtəlif ölkələrin alimləri tərəfindən məhsuldarlıq və şəkərlilik göstəriciləri arasındakı mənfi korrelyasiya əlaqəsinin (r=-0,12 və -0,53) olduğu dəfələrlə qeyd edilmişdir. Bu problemi həll etmək üçün üzümçü alimlər üzümdə keyfiyyəti pisləşdirmədən məhsuldarlığın yüksəldilməsi yollarında bir sıra müsbət nəticələrə nail olmuşdurlar. Bunun üçün üzüm sortlarının kompleks qiymətləndirilməsi zamanı üzümdə kəmiyyət və keyfiyyət əlamətlərinin münasibətini ifadə edən zoğun məhsuldarlıq indeksi göstəricisindən istifadə məqsədəuyğun sayılır.

Bunları əsas tutaraq, tədqiq edilən üzüm sortlarının optimal yük normasının təyin edilməsi, məhsuldar və keyfiyyətli bitkilərin seçilməsi zamanı zoğun məhsuldarlıq indeksindən istifadə edilmişdir. Müəyyən edilmişdir ki, tənəyin ümumi məhsulundakı şəkərliliyin miqdarına görə zoğun məhsuldarlıq indeksi (25,7 (Kardinal)- 60,0 qram x şəkər (Parkent) arasında dəyişməklə, Kardinal (25,7 q x şəkər), Sultanina (27,3 q x şəkər) sortlarında orta miqdarda, Red qlob, Alfons lavelle, Autumn Royal, Sentennial sidlis, Prima və Parkent sortlarında isə (36,1-60,0 q x şəkər) yüksək və çox yüksəkdir. Bu göstəricinin salxımın quru kütləsinə görə hesablanması zamanı müyyən edilmişdir ki, ən aşağı göstəriciyə Kardinal (133,3 q) və Sultanina sortları (149,0 q) malikdirlər. Zoğun məhsuldarlıq indeksinin Red qlob, Alfons lavelle, Autumn Royal sortlarında orta miqdarda (192,8-213,0 q), Sentennial sidlis, Prima və Parkent sortlarında isə yüksək (262,0-295,2 q) olduğu aşkar olunmuşdur.

Üzümdə bar elementlərinin inkişafı son nəticədə onun faktiki (təsərrüfat) məhsuldarlığının formalaşmasına təsir edir. Tədqiqatlar zamanı, öyrənilən üzüm sortlarında bir kolun orta məhsuldarlıq göstəricisi də müəyyən edilmiş və məlum olmuşdur ki, sortlar bu göstəriciyə görə bir-birindən xeyli dərəcədə fərqlənirlər. Belə ki, tənəyin orta məhsuldarlığı öyrənilən sortlarda 6,0-12,4 kq arasında dəyişməklə Kardinal (6 kq) və Prima sortlarında (7,5 kq) digər sortlara nisbətən aşağı olmuşdur. Bu göstərici Sultaninada (8,2 kq), Alfons lavelledə (9,7 kq), Autumn Royalda (9,8 kq), Red

qlobda (10,8 kq), Sentennial sidlisdə (11,0 kq), Parkentdə (12,4 kq) xeyli yüksək olmuşdur.

Tənəyin orta məhsuldarlıq göstəricilərini nəzarət sortla müqayisə etmək üçün riyazi-statistik təhlillər həyata keçirilmişdir. Məlum olmuşdur ki, kolun məhsuldarlığına görə öyrənilən sortlar nəzarətlə müqayisədə əhəmiyyətli dərəcədə dürüstlüyə ($p<0,05$ və $p<0,001$, U-meyarına görə) malikdirlər və nəzarət sorta görə orta artım 20,0-51,6% təşkil edir.

Tədqiqatlar zamanı məlum olmuşdur ki, öyrənilən üzüm sortlarında hektardan məhsuldarlıq 133,3 (Kardinal) -275,5 s/ha (Parkent) arasında dəyişməklə, Kardinalda 133,3; Primada 166,7; Sultaninada 181,3; Alfons lavelledə 216,3; Autumn royalda 217,8; Red qlobda 240,0; Sentennial sidlisdə 245,2; Parkentdə isə 275,5 s/ha olmuş və çox yüksək təşkil edir.

Salxımın orta kütləsinin formalaşmasında gilələrin sayı və onların kütləsi əsas rol oynayır. Süfrə sortları üçün xarakterik əlamətlərdən olan və onların əmtəəlik dəyərini yüksəldən göstəricilərdən biri gilələrin kütlə göstəricisidir. Bu göstərici 100 gilənin kütləsi ilə ifadə edilir. Üzüm sortlarının gilələrinin ölçü və kütləsi onların biomorfoloji xüsusiyyətindən, mənşəyindən və ekoloji-coğrafi qrupundan asılı olaraq olduqca geniş diapozonda dəyişir. Ən kiçik gilələr kişmişi üzüm sortlarında qeydə alınır. Ümumiyyətlə, üzüm sortlarında 100 gilənin kütləsi 80 qramdan 1200 qrama qədər və daha çox diapozonda tərəddüd edir.

Tədqiq edilən üzüm sortlarında 100 gilənin kütləsi 260 (Sultanina)- 820 q (Red qlob) arasında tərəddüd etmişdir. Bu göstəriciyə görə Sultanina sortu xırdagiləli, Prima (486 q) və Sentennial sidlis (490 q) orta, Autumn Royal (580 q), Alfons lavelle 620 q) irigiləli, Parkent (730 q) və Red qlob (820) isə çox irigiləli sortlar olmuşdur.

Öyrənilən üzüm sortlarında salxımda gilələrin orta sayı isə 68 (red qlob)-156 ədəd (Sultanina) arasında dəyişmişdir.

Üzümdə sortun istifadə istiqamətindən, ekoloji amillərdən, məhsulun yetişmə dərəcəsindən və s. asılı olaraq salxımdakı daraq hissə 1,0-8,5%, gilənin payına düşən hissə isə 91,5-99,0% arasında tərəddüd edir.

Tədqiqatlar zamanı müəyyən edilmişdir ki, öyrənilən üzüm sortlarında salxımda gilənin payı 93,8-97,0% arasında dəyişməklə, ən çox kişmiş üzüm sortlarında (Sultanina, Sentennial sidlis, Autumn Royal) 96,1-97,0% müşahidə edilir.

Tədqiqatlar zamanı müəyyən edilmişdir ki, üzüm sortlarında şəkərliliyin miqdarı süfrə sortlarına xarakterik olaraq Autumn Royalda 17,7; Sentennial sidlisdə 18,2; Sultaninada 18,3; Red qlobda 18,7; Kardinalda 19,3; Alfons lavelledə 20,1; Parkentdə 20,3; Primada 20,7 q/100sm3 təşkil edir. Titrlənən turşuluq isə öyrənilən sortlarda qənaətbəxş səviyyədə olmaqla 4,8-7,4 q/dm^3 arasında tərəddüd etmişdir. Şəkərlilik/turşuluq əmsalı (qlükoasidometrik göstərici) üzümün yetişmə göstəricisi olub, onun şirəsindəki şəkərliliyin turşuluğa olan münasibətini ifadə edir. Bu göstəricinin optimal miqdarında üzümün dad keyfiyyəti harmoniklik təşkil edir. Bu göstərici ən yaxşı süfə sortları üçün 2,5 təşkil edir. Tədqiq edilən üzüm sortlarında şəkərlilik/turşuluq əmsalı 2,7-3,8 arasında dəyişməklə, Alfons lavelledə 2,7; Kardinal və Red qlobda 2,8; Sentennial sidlisdə 2,9; Autumn Royalda 3,2; Parkentdə 3,5; Sultaninada 3,8 olmuşdur.

Sortların perspektivliyi konkret bölgədə 25 ən vacib ampelodeskriptor əsasında rəqəmsal şəkildə qiymətləndirilmişdir ki, bura daxil edilən həmin əlamət və göstəricilər üzüm sortlarına qoyulan ümumi və xüsusi tələblərin ən vacib elementlərindəndir [1-5, 7-10].

Konkret bir aqroiqlim bölgəsində üzüm sortlarının perspektivliyinin qiymətləndirilməsi məqsədilə OIV deskriptorlarından ən vacib 25 əlamət və göstərici müəyyən edilərək seçilmiş və "Perspektivliyin qiymətləndirilməsinin yeni modelinə" daxil edilmişdir (cədvəl 2).

Qeyd edilən 25 ən vacib əlamət və göstərici konkret aqroiqlim şəraitində üzüm sortlarının təsərrüfat əhəmiyyətli göstəricilərinin kompleks qiymətləndirilməsinə və perspektivliyinin müəyyən edilməsinə imkan verir. Yeni modelə daxil edilmiş bəzi ampelodeskriptorlarda perspektivliyin qiymətləndirilməsində onların dəyərini artırmaq məqsədilə qismən və ya tam dəyişiklik edilmişdir. Bu dəyişmə əlamətlərin variasiya həddini standartlaşdırmağa və biometrik cəhətdən bircins sahəyə aid etməklə informasiyanı “sıxmağa” imkan verir. Sortların qiymətləndirilməsində zoğu erkən yetişən, gilələrinin qabığı nazik olan, giləni saplaqdan ayırmağa çox qüvvə tələb olunan, xırda toxumlu tezyetişən sortların dəyərini artırmaq üçün gözcüklərin şişməsindən məhsul yığımına kimi müddətin uzunluğu (629), zoğların yetişməyə başlaması (OIV 305), gilələrin qabığının qalınlığı (OIV 228), gilənin saplaqdan ayrılması üçün sərf olunan qüvvə (OIV 240), toxumun ölçüsü (OIV 242) kimi əlamətlərin kodları saxlanılmaqla onların ardıcıllığı dəyişdirilmişdir. Digər tərəfdən, salxımın sıxlığı (OIV 204), gilə qabığının rəngi (OIV 225) və gilələrin spesifik ətri (OIV 236) ampelodeskriptorlarının rəqəmsal ölçüləri və bu kodlara uyğun əlamətləri elə dəyişdirilmişdir ki, onların seleksiyaya yararlılığı və perspektivliyin qiymətləndirilməsində rolu daha böyük əhəmiyyət kəsb etsin.

Cədvəl 2

Üzüm sortlarının perspektivlik göstəriciləri

25 əlamətin OIV ampelodes-kriptorları üzrə kodu	**Düzəliş əmsalı**	İntroduksiya olumnuş sortlar								Yerli sortlar						
		Parkent	Prima	Alfons lavelle	Autumn royal	Red qlob	Sultanina	Sentennial sidlis	Kardinal (nəzarət)	Ağ Xəlili	Təbrizi	Ağ oval kişmiş	Qara kişmiş	Hüseyni	Şamaxı Mərəndisi	Qara şanı (nəzarət)
301	**0,5**	5	3	7	7	7	7	7	3	5	7	7	7	7	7	7
629	**2,5**	1	7	1	5	1	5	3	7	9	5	5	5	3	3	3
305	**0,4**	7	5	5	5	7	5	5	3	7	5	5	5	5	5	5
604-1	**0,2**	7	7	9	9	9	7	7	7	9	7	9	9	9	7	9
630	**1,5**	5	7	7	7	7	5	7	3	7	7	7	7	7	7	7
153	**0,7**	2	3	3	3	3	2	3	1	2	3	2	3	1	2	3
502	**1,0**	9	5	5	7	7	5	5	5	3	5	5	5	7	7	3
504	**2,5**	9	9	9	9	9	9	9	7	5	9	9	9	7	9	5
505	**2,2**	7	7	5	7	5	5	5	5	5	7	7	7	5	5	7
204	**0,7**	7	7	7	7	9	7	7	7	9	7	7	7	9	7	9
206	**0,2**	7	5	7	7	7	5	5	5	3	3	5	3	7	5	7
220	**1,0**	9	5	7	7	9	3	9	7	7	9	5	5	9	7	7
222	**2,0**	2	2	2	2	2	2	2	1	2	2	2	2	2	2	2
223	**1,0**	6	3	4	9	3	5	9	3	4	9	4	4	8	9	3
225	**1,8**	9	5	5	5	3	1	1	3	7	7	7	5	7	5	5
228	**0,4**	5	5	7	3	3	3	5	5	3	5	3	3	5	3	3
236	**1,5**	1	3	4	3	3	1	4	4	3	3	3	3	3	3	3
237	**1,3**	1	1	3	2	1	1	3	5	1	1	1	1	1	1	1
238	**0,2**	7	5	5	5	7	5	5	5	3	3	3	3	7	5	5
240	**0,5**	7	7	5	7	7	5	7	5	9	7	7	7	7	5	5
242	**0,2**	3	5	5	9	7	9	9	1	5	3	9	9	1	3	5
351	**0,5**	9	7	7	5	5	7	9	7	7	9	7	7	9	9	7
452	**1,0**	5	5	5	5	5	3	5	3	3	3	3	3	5	3	5
455	**1,0**	5	3	3	5	3	3	5	3	1	3	3	3	5	3	5
459	**0,8**	7	7	5	7	7	7	7	1	1	5	5	5	5	5	5
Ümumi bal		137,0	136,6	125,0	145,3	122,2	112,3	133,5	115,0	124,1	143,0	142,4	125,6	132,2	127,3	118,0
Nəzarətə görə fərq		+22,0	+21,6	+10,0	+30,0	+7,2	-2,7	+18,5	-	+6,0	+25,0	+24,4	+7,6	+14,2	+9,2	-

Qeyd edilən əlamətlər OIV ampelodeskriptor klassifikasiyasına görə müxtəlif qradasiyalarda balla qiymətləndirilir və bu əlamətlərin müvafiq qiymətlərinin dərəcəsinə uyğun gəlir. Hər bir sort üzrə müvafiq əlamətlər üzrə müəyyən edilmiş rəqəmsal kodlar əlamətlərin müvafiq düzəliş əmsallarına vurularaq hasilləri toplanmış və hər bir sort üçün ümumi bal müəyyən edilmişdir. Alınmış rəqəmlər üzüm sortlarının Cəlilabad şəraitində perspektivli olub-olmaması barədə qənaətbəxş fikir söyləməyə inkan verir. Belə ki, perspektivliyin bal göstəricisi 112,3-145,3 arasında dəyişməklə, Sultaninada 112,3-ə, Kardinalda 115,0-ə, Red qlobda 122,2-yə, Alfons lavelledə 125,0-ə, Sentennial sidlisdə 133,5-ə, Primada 136,6-ya, Parkentdə 137,0-yə, Autumn Royalda 145,3-ə bərabər olmuşdur. Əldə edilən bal göstəriciləri Cəlilabadda uzun illərdi əkilib-becərilən Kardinal sortunun göstəriciləri ilə müqayisə edilmiş və nəzarət sorta (Kardinal-115 bal) nisbətən Red qlobda 7,2; Alfons lavelledə 10,0; Sentennial sidlisdə 18,5; Primada 21,6; Parkentdə 22,0 bal yüksək olmuşdur. Aydınlaşdırılmışdır ki, Sultanina sortu istisna olmaqla digər sortların perspektiv bal göstəricisi Kardinal sotundan xeyli (nəzarətədən 7,2-30,0 bal yüksək) yüksəkdir.

Tədqiqat illərində Cəlilabad şəraitində əkilib becərilən bəzi yerli üzüm sortlarının da (Ağ Xəlili, Təbrizi, Ağ oval kişmiş, Qara kişmiş, Hüseyni, Şamaxı mərəndisi, Qara şanı) perspektivliyi yeni model əsasında qiymətləndirilmişdir. Aydınlaşdırılmışdır ki, yerli üzüm sortlarının perspektivlik göstəriciləri qənaətbəxş səviyyədə olmaqla 118,0 (Qara şanı) -143,0 bal (Təbrizi) arasında dəyişir və Qara şanıda 118,0; Ağ Xəlilidə 124,1; Qara kişmişdə 125,6; Şamaxı mərəndisində 127,3; Hüseynidə 132,2; Ağ oval kişmişdə 142,4; Təbrizidə isə 143,0 bal təşkil etmişdir. Yerli üzüm sortlarının perspektivlik göstəricisi Qara şanı (nəzarət) sortunun göstəricisi ilə müqayisə edilmişdir. Aydınlaşdırılmışdır ki, nəzarətə görə fərq bütün sortlarda müsbət olmaqla, artım Ağ Xəlilidə 6,0; Qara kişmişdə 7,6; Şamaxı mərəndisində 9,2; Hüseynidə 14,2; Ağ oval kişmişdə 24,4; Təbrizidə isə 25,0 bal təşkil edir.

Ümumiyyətlə, tədqiq edilən yerli və introduksiya olunmuş süfrə üzüm sortlarının ən vacib təsərrüfat əhəmiyyətli 25 əlamətinin qiymətləndirilməsindən məlum olmuşdur ki, onlar müsbət bioloji və təsərrüfat-texnoloji xüsusiyyətləri ilə səciyyələnir və Lənkəran-Astara bölgəsi şəraitində geniş əkilib-becərilmələri məqsədəuyğundur.

Tədqiqatlardan aydın olmuşdur ki, Cəlilabad şəraitində əkilib-becərilən süfrə istiqamətli introduksiya olunmuş sortların məhsuldarlıq və uvaloji (mexaniki, keyfiyyət və s.) göstəriciləri yüksək səviyyədə inkişaf edərək formalaşır. Bu sortların təsərrüfatlarda geniş sahələrdə becərilməsi sayəsində respublikada süfrə üzümçülüyünün inkişafına kömək etmək, əhalinin keyfiyyətli təzə üzüm məhsuluna olan tələbatının ödənilməsini xeyli yaxşılaşdırmaq olar. Tənəyin əkilib-becərildiyi yerin topoqrafik (orfoqrafik) vəziyyəti, xüsusilə də yerin dəniz səviyyəsindən hündürlüyü və yamacların vəziyyəti birillik zoğların boyatmasına təsir edir.

ƏDƏBİYYAT

1. Əsədullayev A.H., Süleymanov C.S., Vəliyev C.J. Üzümün məhsuldarlığının artırılması və keyfiyyətinin yaxşılaşdırılması. Bakı: Azərnəşr, 1981, 218 s. 2. Səlimov V.S. Üzüm genotiplərinin ampeloqrafik tədqiqat üsulları. Bakı: Müəllim, 2014, 184 s. 3. Səlimov V.S. Üzüm genotiplərinin əlamət və xüsusiyyətlərinin ampelodeskriptorlar əsasında öyrənilməsi və təsviri // AzET Əkinçilik İnstitutunun elmi əsərləri məcmuəsi, 2014, XXV cild, s. 106-116. 4.Şərifov F.H. Üzümçülük. Bakı: Şərq-Qərb, 2013, 584 s. 5.Авидзба А.М. и др. Разработка и реализация национальной программы совершенствования сортимента винограда в Украине. Ялта:НИВиВ «Магарач», 2009, 15 с. 6.Гублер Е.В., Генкин А.А., Применение непараметрических критериев статистики в медико-биологических исследованиях. Ленинград: Медицина, 1973, 141 с. 7.Гусейнов Ш.Н., Чигрик Б.В., Гордеев В.Н. Влияние нормы нагрузки на продуктивность сорта винограда Денисовский на Дону // Виноделие и виноградарство, 2007, №6, с. 42-43. 8.Дикань А.П., Семенюк В.А. Формирование генеративных органов и урожая сортов винограда с групповой устойчивостью в предгорной зоне Крыма // Научн. труды КГАТУ, -Сельскохозяйственные науки, Симферополь, 2002, вып. № 69, с. 157-170. 9.Лазаревский М.А. Изучение сортов винограда. Ростов-на-Дону: Издательство Ростовского университета, 1963, 152 с. 10. Пытель И.Ф., Волынкин В.А., Олейников Н.П. Реализация моделей селекционных сортов винограда технического направления в ГБУ ННИИВИВ «Магарач» // «Магарач» виноградарство и виноделие, 2015, №3, с. 74-75. 11.Семенюк В.А. Потенциальная плодоносность ее эффективное использование для прогнозирования и выращивания высокого урожая сортов винограда с групповой устойчивостью в предгорье Крыма. Автореферат диссертации на соискание ученой степени кандидата сельскохозяйственных наук, Ялта, 2006, 21 с. 12.Смирнов К.В., Калмыкова Т.И., Морозова Г.С., Виноградарство. М.; Агропромиздат, 1987, 367 с. 13.Трошин Л.П., Маградзе Д.Н. Ампелографический скрининг генофонда винограда. Краснодар: КГАУ, 2013, 120 с. 14.Codes des caracteres descriptifs des varietes et especes de Vitis. – OIV, 2009. Website http://www.oiv.int/fr/ и http: //www.oiv.int/oiv/info/frplubicationoiv#listdesc.

Оценка перспективности некоторых интродуцентных сортов винограда на основе “инновативной модели”

В.С. Салимов, М.А. Гусейнов, Х.Н. Насибов, А.С. Гусейнова, А.С. Шукюров

В результате многолетних научно-исследовательских работ изучены некоторые интродуцированные сортов винограда, выращиваемые в условиях Джалилабадского районе. Из них выделены некоторые наилучшие столовые сорта различного срока созревания, приспособленные к почвенно–климатическим условиях Джалилабада и превосходящие по комплексным признакам. В статье рассказывается о показателях продуктивности (плодоносные побеги, коэффициент плодоношения, количество гроздей, средняя масса гроздей, урожайность куста, урожайность с гектара и др.) и особенностях роста и развития сортов винограда, выращиваемых в Джалилабадском районе.

Ключевые слова. *столовый сорт винограда, ампелографическая коллекция, фенология, урожайность, плодоносные побеги, бесплодные побеги, сахаристость, титруемая кислотность*

Based on “innovative model” evaluation of perspectivity of several introductory grape varieties

V.S. Salimov, M.A. Huseynov, H.N. Nasibov, A.S. Huseynova, A.S. Shukurov

As a result of long-term research works some introduced and local grapevine varieties, have been investigated in Jalilabad region. Among them the best table grapevine varieties of various time of ripening were selected. These varieties are adaptable to soil-climatic conditions of the region Jalilabad and prevail on the complex characteristics.

The article tells about the indexes of productivity (productive shoots, productivity coefficient, number of the bunches, bunches` average weight, plant`s productivity, productivity from 1 hectare etc.) and the specifics of the growth and development of the grape varieties cultivated in the Jalilabad region.

Key words. *table grape varieties, ampelographic collection, productivity, fruit-bearing shoots, fruitless shoots, sugar content, titratabic*